# Rayon müşavirəsi keçirilmişdir

Avqustun 4-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Qaxda keçirilən barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsində dövlət başçısı tərəfindən verilmiş tapşırıqların icrası ilə bağlı Qəbələ Rayon İcra Hakimiyyətində geniş müşavirə keçirilmişdir.





Rayonun əlaqədar idarə, müəssisə, təşkilat rəhbərlərinin, fermerlərin, sahibkarların, inzibati ərazi nümayəndələrinin və bələdiyyə sədrlərinin iştirakı ilə keçirilmiş iclasda RİH başçısı Səbuhi Abdullayev respublika müşavirəsində cənab İlham Əliyevin söylədiyi nitqdən irəli gələn vəzifələr barədə məlumat vermişdir. Qeyd edilmişdir ki, ölkə başçısının respublika müşavirəsindəki proqram xarakterli çıxışında əldə edilmiş uğurların daha da möhkəmləndirilməsi üçün gələcək inkişafın əsas prioritetləri müəyyənləşdirmiş və hər bir sahə üzrə konkret tapşırıqlar vermişdir.

Müşavirədə Səbuhi Abdullayev demişdir ki, dövlət başçısının tapşırığına uyğun olaraq, qarşıdakı dövrdə də kənd təsərrüfatının inkişafı prioritet istiqamətlərdən biri olaraq qalacaqdır. Bu sahədə aparılan islahatların dərinləşdirilməsi, məhsuldarlığın artırılması, kənd təsərrüfatının texniki təminatının daha da yaxşılaşdırılması və daha böyük ixrac potensialının yaradılması, kənd təsərrüfatının inkişafının müsbət demoqrafik dinamika ilə uzlaşdırılması barədə konkret tapşırıqlar verildiyini söyləmişdir. Natiq ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi, istehsalı mümkün olan bütün məhsulların, texniki bitkilərin, o cümlədən pambıqçılığın tütünçülüyün, baramaçılığın və fındıqçılığın Azərbaycanda inkişaf etdirilməsi və idxaldan asılılığın azaldılması məsələlərinin dövlət başçısı tərəfindən vəzifə olaraq müəyyənləşdirildiyini diqqətə çatdırmışdır.

Müşavirədə rayon kənd təsərrüfatı idarəsinin rəisi Rahib Əhmədov, barama istehsalçısı İlham Şərifov, fındıqçılıq üzrə sahibkar Sidqi Quliyev məsələ ətrafında çıxış etmişlər.

Yekunda qərar layihəsi qəbul edilmişdir.

**"Qəbələ"**

# İsrailin səfiri Qəbələ rayonunda səfərdə olmuşdur

İsrailin Azərbaycandakı səfiri Dan Stav Qəbələ rayonuna səfər edib.



Rayon icra hakimiyyətində israilli diplomatla keçirilən görüşdə RİH-nin başçısı Səbuhi Abdullayev qonağa Qəbələnin tarixi, coğrafi mövqeyi, əhalisi və sosial-iqtisadi inkişafı barədə məlumat verib. Qeyd olunub ki, yəhudilər əsrlər boyu azərbaycanlılarla birlikdə dostluq, mehribanlıq şəraitində yaşayıblar. Bu gün də yəhudilər bu ölkənin bərabər hüquqlara malik vətəndaşlarıdır və Azərbaycan onlar üçün doğma vətəndir.

Səfir Dan Stav görüşdə ölkələrimiz arasında münasibətlərin inkişafından məmnunluğunu bildirib. Azərbaycanda mövcud tolerantlıq mühitinin ölkəsində yüksək dəyərləndirildiyini qeyd edən israilli diplomat respublikamızın sabitlik məkanı olduğunu, azsaylı xalqların sülh və əmin-amanlıq şəraitində birgə yaşadığını vurğulayıb.

Dan Stav səfəri çərçivəsində IX Qəbələ Beynəlxalq Musiqi Festivalının konsertlərində də iştirak edib.

**"Qəbələ"**

**Foto İlkin Vəlizadənindir.**

# Faktlar və rəqəmlər

✦Azərbaycanın bölgələrində lazım olan bütün infrastruktur layihələri icra edilib və biz sürətli inkişaf dövrünü yaşayırıq.

✦Azərbaycan nəinki özünü elektrik enerjisi ilə təmin edir, hətta xaricə də böyük miqdarda ixrac edir və böyük vəsait qazanır. Yeni tikilmiş 20-dən çox elektrik stansiyası bu imkanları bizə yaratdı.

✦Qazlaşdırma Azərbaycanda hazırda 93 faiz səviyyəsindədir. Ölkəmiz dünya üçün, Avropa üçün, qonşu ölkələr üçün qaz təchiz edən etibarlı ölkəyə çevrilmişdir.

✦2004-cü ildən bu günədək11 min kilometr yeni yollar - həm magistral, həm də kənd yolları salınmışdır, böyük meliorasiya layihələri icra edilmiş, Taxtakörpü, Şəmkirçay su anbarları, digər dəryaçalar yaradılmış, kanallar çəkilmişdir və bu proses bu gün də davam etdirilir.

✦3 mindən çox məktəb, 600-dən çox xəstəxana, bölgələrdə 50-yə yaxın olimpiya idman kompleksi tikilib. Sahibkarlara verilən kreditlər hesabına yüz minlərlə yeni iş yeri yaradılmışdır. Bütövlükdə 2004-cü ildən bu günə qədər 1 milyon yarım iş yeri açılmışdır ki, bunun böyük əksəriyyəti daimidir. İşsizlik kimi bir çox ölkələri incidən, boğan sosial amil Azərbaycanda yoxdur. İşsizlik 5 faiz səviyyəsindədir.

✦ Bu ilin altı ayında ixrac 36 faiz, qeyri-neft ixracı 27 faiz artıb. Kənd təsərrüfatı məhsullarının ixracı 40 faizdən çox olub. 6 ayda valyuta ehtiyatlarını nəinki qoruya bilmişik, görülmüş tədbirlər, düşünülmüş iqtisadi siyasət nəticəsində 3 milyard dollar əlavə valyuta gəlib, 5 milyard investisiya qoyulub. Davos Ümumdünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabətqabiliyyətliliyinə görə 37-ci yerə layiq görüb. Bu, MDB məkanında birinci göstəricidir.

# Kənd sakinləri minnətdarlıqlarını bildiriblər

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev yerlərdə səyyar görüş-qəbulların keçirilməsinə üstünlük verir. Sakinlərin yaşayış məntəqələrinin, eləcə də şəxsi problemlərinin həlli ilə bağlı RİH-nə gəlməsini gözləmir, özü onlara tərəf gedir. Nohurqışlaq kəndində də görüş-



qəbul bu ruhda keçirilib.

Avqustun 1-də keçirilən görüş-qəbulu rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev açıb. Görüşdə rayonun hüquq-mühafizə orqanlarının, əlaqədar idarə, müəssisə və



təşkilatların rəhbərləri iştirak edib.

Səyyar qəbulda Səbuhi Abdullayev rayonda aparılan geniş miqyaslı abadlıq-quruculuq işləri haqqında ətraflı məlumat verib, əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində görülən məqsədyönlü tədbirlər barədə danışıb. RİH başçısı Prezident cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində ölkəmizin beynəlxalq aləmdə mövqelərinin möhkəmləndiyini, müdafiə potensialının gücləndiyini bildirib, rayonun sosial-iqtisadi həyatında baş verən nailiyyətlərdən söz açıb, sənaye, kənd təsərrüfatı, tikinti-quruculuq sahələrində görülmüş işlər haqqında məlumat verib.

Görüşdə Nohurqışlaq kəndinin bir sıra sosial-iqtisadi problemləri diqqətə çatdırılıb. Çıxış edən kənd sakinləri yaşayış məntəqəsinin ümumi problemlərinin həlli istiqamətində təkliflər irəli sürüblər.

Rayon icra hakimiyyətinin başçısı qaldırılan problemlərin həlli ilə əlaqədar aidiyyəti idarə və təşkilatların rəhbərlərinə zəruri tapşırıqlar verib.

Sakinlər onlara göstərilən diqqət və qayğıdan razı qaldıqlarını bildirərək, ölkə başçısına minnətdarlıqlarını ifadə ediblər.

**"Qəbələ"**

**Fotolar Səhrab Umuyevindir.**